**UOT 39**
**https://doi.org/10.59849/2218-4783.2026.1.115**

# ARXAİK İNAMLAR VƏ QƏDİM DİNİ AYİNLƏR
## (Naxçıvan materialları əsasında)

# ARCHAIC BELIEFS AND ANCIENT RELIGIOUS RITUALS
## (Based on materials from Nakhchivan)

**Asəf ORUCOV***

## XÜLASƏ

Məqalədə arxaik inamlardan və qədim dini ayinlərdən bəhs edilmişdir. Arxaik inamlar əsasən mifik varlıqlarla, daş, ağac, su, dağ və təbiət qüvvələrlə bağlı olmuşdur. Məqalədə insanlarla bərabər, heyvanların, evin və təsərrüfatın da bəd ruhlardan, pis niyyətli insanlardan və nəzərdən qorunmasına xüsusi diqqət yetirildiyi qeyd edilmişdir.

İslamaqədərki inanc sistemini araşdırarkən onların etnik kimliyi və tarixilik məsələsinə də geniş yer verilmişdir. Araşdırma zamanı məlum olmuşdur ki, bu inanc sistemlərinin bəziləri müxtəlif hadisələrlə, rəvayətlərlə bağlı olaraq günümüzə qədər gəlib çatmışdır.

Aparılan tədqiqat zamanı demək olar ki, qədim insanların arxaik təsəvvürlərində heyvanlara pərəstiş də müəyyən yer tutduğuna şahid oluruq. Eyni zamanda qədim dini təsəvvürlərdə əcdadlar kultu da mühüm yer tuturdu. Əcdadlara sitayiş müqəddəslərə sitayişə bənzər olduğunu görürük.

**Açar sözlər:** *Arxaik inam, din, ayin, Naxçıvan, kult, daş, ağac, su.*

## ABSTRACT

This article discusses archaic beliefs and ancient religious rituals. Archaic beliefs were primarily associated with mythical beings and with stone, wood, water, mountains and natural forces. The article notes that special attention was paid to protecting not only people, but also animals, the home and the household from evil spirits, ill-intentioned individuals and the evil eye.

In examining the pre-Islamic belief system, considerable attention is given to issues of ethnic identity and historicity. The research reveals that some of these belief systems have survived to the present day, linked to various events and narratives.

The study also demonstrates that the worship of animals occupied a certain place in the archaic worldview of ancient peoples. At the same time, the cult of ancestors was an important component of ancient religious beliefs, and the veneration of ancestors is seen to have resembled the veneration of saints.

**Keywords:** *archaic belief, religion, ritual, Nakhchivan, cult, stone, wood, water.*

## GİRİŞ

Dünyanın bir sıra xalqlarında olduğu kimi, Azərbaycanda və onun ayrılmaz bir parçası olan Naxçıvanda İslamdan əvvəlki dövrdə bir çox qədim dini inamlar, etiqadlar və mərasimlər geniş yayılmışdı. Bu dini ayinlərin, etiqadların bəzilərini İslam dinini qəbul etməyimizə baxmayaraq günümüzün özündə belə məişətimizdə geniş şəkildə yayılmışdır. Demək olar ki, insanların bir çoxu bu cür inanclar sisteminə hələ də tapınmaqdadır. Qeyd etmək lazımdır ki, islamaqədərki dini təsəvvürlər mahiyyətcə çox mürəkkəb və çoxcəhətlidir. Təsadüfi deyil ki, tədqiqatçılar arasında bu təsəvvür-

* AMEA Naxçıvan Bölməsi, e-mail:aseforucov@yahoo.com.tr
ORCİD: 0000-0002-1758-5266

lərin elmi təsnifatı, prinsipləri haqqında fikirlər müxtəlifdir. Burada miflə dinin nisbəti, daha doğrusu, islamaqədərki əqidələrin mif və yaxud din hesab olunması məsələsini və s. göstərmək olar. Mütəxəssislərin fikrinə görə, qədim dini etiqadların sistem və modelləşdirilməsinə böyük ehtiyac duyulur. Azərbaycanda islamaqədərki etiqadların aşağıdakı formaları mövcuddur: daş ayini, su ayini, ağac ayini, od ayini, kosmoqoniya ilə bağlı etiqadlar və s. Yuxarıda qeyd olunan ayinlər animizm, magiya (sehrbazlıq), totemizm, əcdadlara sitayiş və fetişizmlə sıx bağlıdır [Azərbaycan etnoqrafiyası, 2007: 403].

## MİFİK VARLIQLAR

Arxaik inamlar içərisində mifik varlıqlarla bağlı inamlar mühüm yerlərdən birini tutur. Mifik varlıqlar içərisində müxtəlif ruhlardan, şər qüvvələrdən qorunmaq vəzifələri başlıca amillərdəndir. Lakin belə inamlar çoxcəhətli olmaqla digər sahələri də əhatə edir. Toplanmış materialların təhlilinə əsasən bunları aşağıdakı kimi qruplaşdırmaq olar.

1. İnsanların qorunması.
2. Heyvanların qorunması.
3. Ev və təsərrüfatın qorunması.

İnsanların qorunmasında kiçik yaşlı uşaqlara daha böyük üstünlük verilirdi. Qədim dini təsəvvürlərdə ruhların qeyri-adi qüvvəsinə inam xüsusi yer tuturdu. Belə ruhlara şeytanlar, cinlər, qulyabanı və hal anası kimi şər ruhları daxil etmək olar. Cinlər xalqın mifik təsəvvüründə onlara zərər vuran şeytana bənzədilirdi [Azərbaycan etnoqrafiyası, 2007, s. 406]. Naxçıvanda daha çox şər qüvvələri cin, şəyatin, ins-cins adlandırırdılar. İns-cins sözünü isə ins ərəb mənşəli insan, cins-cin demon mənasında qəbul edirlər. Guya hər bir nəfərin cini var: “cinimi başıma qaldırma”, “cinim başıma vurdu”, “məni cinləndirmə” “cinli” və s. ifadələr insanın cinlə əlaqəsini göstərir. Cinlə bağlı inamlar bütün Azərbaycan üçün xarakterikdir. Cinlərdən qorunmaq üçün gecələri atın belinə qır sürtərlər. Cinlər ata yaxın düşməsin deyə atın quyruğuna sancaq vurardılar. Xalq arasından toplanmış materiallarda cin və div ayrı-ayrı anlama gəlsələr də, bir sıra baxımdan cin-div qarşılaşdırılmasına rast gəlirik. Cinlərin insanlara müxtəlif dərəcədə xəsarət yetirdiyi məlumdur. “Cin vurub”, “cinin yeli dəyib”, “cinlər zəfər toxuyublar” və s. kimi sözlər uzunmüddət xalq arasında işlənmişdir. Cindən olduğu kimi qarabasma, şeşə və cillədən qurtarmaq üçün də müxtəlif vasitələrdən istifadə olunur. “Bismill” demək, üstünə “şəvə” adlı xüsusi muncuq, iynə gəzdirmək və s. Lakin “vurğun” çox qorxulu sayılır, vurğunun vurması ölüm deməkdir. Əgər cin vuranda ağız, göz əyilirsə vurğun vuran o dəqiqə yıxılır və ölür. “Vurğun vurma”nın əlaməti kürəkdə qaralma, dodaqların və dilin göyərməsidir. Vurğun və çarpma qarşılıqlı olaraq işlənmişdi. “Vurğunun haqdan gəlsin”, “Vurğunun təpəndən vursun”, “çalman qüvvətli gəlsin” ifadələri həmin bəd ruhla bağlıdır. Əlamətlərinə görə bu, indiki infarkta uyğundur. Ancaq keçmişdə insanlar bunun nə dərd olduğunu bilmədiyinə görə filankəsi “vurğun (vırqın) vurdu” deyərdilər.

İnsanlarla bərabər, heyvanların, evin və təsərrüfatın da bəd ruhlardan, pis niyyətli insanlardan və nəzərdən qorunmasına xüsusi diqqət yetirilirdi. Bu məqsədlə atın yəhərindən, cilovundan, qaramalın buynuzundan “nəzərlik”, gözmuncuğu asmaq adəti geniş yayılmışdı. Evləri, həyəti, təsərrüfatı gözdəymədən, şər qüvvələrdən qorumaq üçün it kəlləsi, qırılmış çaynik asmaq geniş yayılsa da, Şahbuz, Culfa bölgəsində at, inək kəlləsi asmaq da vardı. Evlərin giriş qapılarının başından dağ keçisi buynuzu, xərçəng, at nalı (ağzı yuxarıya) asılırdı. Ordubad şəhərində bir sıra həyətlərdə, həyət və ev qapılarının başında “Ayətəl-kürsü” yazılıb qoyulur. Gözdəymədən qorunmaq üçün bağ və bostanda köhnə ayaqqabı tayı, qırmızı parça asılır. Demək olar ki, bütün evlərdə üzərlikdən düzəldilmiş nəzərliklər mövcuddur.

## DAĞ-DAŞ İNAMI

Arxaik inamlar və islamaqədərki inanclar sistemində daş inamı, daşla bağlı ayinlər geniş yayılmışdır. Xalq arasında "qara daş", "bərəkət daşı", "ocaq daşı", "yağmur daşı" adlanan daşlara inam olduqca güclüdür. Bərəkət daşı ilin axır çərşənbəsində götürülüb unun, yağın içinə qoyulur və hər il təzələnir. Ərazidə olan bəzi pirlərdə "deşik daş" adı ilə bilinən daşlar vardır. Uşağı olmayan qadınları, müəyyən xəstəliyi olanları, yeriməyən, lal, kar uşaqları aparıb həmin deşik daşdan üç dəfə keçirərdilər. Naxçıvan ərazisində "Gəlin daşı, "Gəlin qayası", "Dəvə karvanı", "Qız qayası", "Daş qız", "Qız-gəlin" və s. adları ilə bilinən daşlar vardır. Bu daşlar haqqında olan inama görə, onlar əvvəllər insan olmuşlar, müəyyən hadisədən sonra daşa çevrilmişlər. Bu barədə çox sayda rəvayətlər toplanıb. Bu yerlərlə bağlı söylənilən əfsanələr insanların düşüncə tərzinin məhsulu olmaqla yanaşı, onların mənəvi dünyasını əks etdirir. Xalq arasında "çiçək daşı", "öpgə daşı", "ballı daş", "su daşı" ilə bağlı müxtəlif inamlar vardır. "Çiçək daş"ından əsasən heyvan səpmə xəstəliyi tutanda istifadə olunur. Daşı suya salıb mal heyvanın üstünə səpirlər və ya həmin sudan heyvana verirlər. İnama görə, daş hər dəfə suya salındıqdan sonra az da olsa kiçilir. "Çiçək daş"ından ilan vuranda da istifadə edirlər. Daş, ilan vurduğu yerə sürtülür. "Öpgə daş"ından isə mal-heyvan müəyyən xəstəlik tutanda istifadə olunur. Keçmişdə geniş istifadə olunan daşlardan biri də su daşıdır. Lil suyu daşın içinə töküb təmizləyirmişlər. Su daşını murdarlamaq, səbəb olmadan evdən çıxarmaq olmaz. Deyirlər ki, su daşını evindən çıxaranın ruzi-bərəkəti olmaz [Qədirzadə, 2006, s. 75].

Naxçıvan ərazisində qoç daşlarla bağlı inamlar geniş yayılmışdır. Əsasən qəbirlərin üstlərində daşdan yonulmuş qoç fiqurlarına rast gəlinir. Qəbirlərin üstlərinə qoyulan daşlarla bağlı olaraq deyirlər ki, ölən adam qoyuna, qoça minib cənnətə gedəcəkdir. Bununla bərabər qoç daşlarından niyyət üçün də istifadə olunurmuş. Digər bir rəvayətə görə həmin daşlar Ağqoyunlu və Qaraqoyunlu tayfalarına aiddir. Müəyyən xəstəliyi olanları, uşağı olmayan qadınları pir və ziyarətgahlarda olan qoç daşın altından və yaxud dəlik daşın içindən üç dəfə keçərdilər. Naxçıvan şəhərində belə daşların olması haqqında rus tədqiqatçıları da geniş şəkildə bəhs etmişdir. Culfa rayonunun Dizə kəndində "Ay daşı" adlanan daşın üstündə Ay və Günəş təsviri var imiş. Bu daş kultu ilə bərabər, həm də Aya və Günəşə tapınma, onlara kult kimi baxmaqla da əlaqəlidir. Pirlərin bir çoxunda qara daşlar vardır. İnanca görə bu daşları kim qurşağa qədər qaldırsa, niyyəti hasil onunacaqdır.

Daşlarla bağlı inamlarla yanaşı, xalq arasında dağ kultuda geniş yayılmışdır. Dağların Tanrıya daha yaxın olduğunu hesab edərək onları müqəddəsləşdirmişlər. Professor A.Seyidov yazır ki, türk xalqlarında dağın ulu əcdad hesab edildiyi inamı movcüd olmuşdur [Seyidov, 2003, s. 151]. AMEA-nın müxbir üzvü V.Baxşəliyevə görə, Gəmiqayanın ziyarətgaha çevrilməsində dağ inancı müəyyən rol oynamışdır [Baxşəliyev, 2004, s. 186]. "Bilqamıs" dastanından məlum olur ki, şumerlərdə çətinliyə düşən, yolunu müəyyən etməyi bacarmayan şəxs çıxış yolunu dağdan diləyir [Bilqamıs, 1985, s. 83].

## AĞAC İNAMI

Arxaik inamlar içərisində ağaclarla bağlı inamlar da xüsusi yerlərdən birini tutur. Bu ağaclar içərisində etnosun müqəddəs hesab etdiyi ağaclar mühüm yer tutur. Ağacları müqəddəsləşdirən bir sıra amillər mövcuddur. Onların dünyanı təmsil etməsi, yaşıllıq, istilik və qida mənbəyi olmasını buna misal göstərmək olar. Ağaclar həm yeraltı, həm yerüstü dünyanın, həm də göy aləminin təmsilçisi sayılır. Belə hesab etmişlər ki, həyatda olan istər canlı, istər cansız, gözlə görünən, gözlə görünməyən nə varsa onların hamısının sahibi (yiyəsi) vardır. Xalqımız ağacları canlı hesab etməklə onların bir-biri ilə əlaqə qurduğuna inanmışlar. Söyüd ağacı ilə bağlı inamlar diqqətimizi xüsusilə cəlb edir. Məlum olduğu kimi, Naxçıvanda mərhumun qoltuğunun altına söyüddən qoltuqağacı qoyurlar. Aparılan etnoqrafik tədqiqatlardan məlum olmuşdur ki, Naxçıvanın demək olar ki, hər bölgəsində dəfn zamanı insanın sağ və sol qoltuq arasında sərçə barmağı qalınlığında (təqribən 2-3 sm

diametrində), bir qarış uzunluğunda (təqribən 13-20 sm) iki söyüd çubuğu qoyulmaqdadır. Bu inancın yaranması haqqında fərqli fərziyyələr mövcuddur [Həsənov, 2019, s. 54-57].

Doqquzdonlu ağacını qırmaq olmaz. Xalq arasında buna "əppək ağacı" da deyirlər. İnama görə, yaşıl ağaca daş atmazlar. Yaşıl ağacı qırmaq, el yolunu kəsmək, suyu murdarlamaq bağışlanmayan günahdır. Yemişan ağacını yandırmaq olmaz, onun üstündə "Ya Əli" yazılıb. Həyətdə çoxlu meyvə ağacı olanda onlardan birini seyidə ad eləyirlər. Ağac nə meyvə versə onu yığıb həmin adama verirlər. Digər inama görə, ağacın alt tərəfi ehsan sayılır. Yəni, aşağıda olan meyvələri qonşular, uşaqlar yeyərlər. Bəzi ağaclar vaxtsız yəni, payızda çiçəkləyir. El arasında deyirlər ki, bunun düşərdüşməzi olar. Ona görə də qurban kəsib paylamaq lazımdır. İnama görə, vaxtsız çiçəkləyən ağacın meyvələri dərman sayılmaqla müəyyən xəstəliklərdə istifadə olunur. Bölgədə ağac pirlərinin olduğunun şahidi oluruq. Ağaca parça, bez bağlamaq adəti də geniş yayılmışdır.

Xalqın inamına görə xurma, əncir, tut, alma cənnət meyvələri hesab edilir [Qədirzadə, 2006, s. 79]. Ağaclara görə istiqaməti təyin etmək üçün keçmişdə insanlar əllərini ağaca sürtərək bilirmişlər. Uzunmüddətli təcrübəyə əsaslanaraq bilirmişlər ki, ağacın qırtıqlı tərəfi şimalı, hamar tərəfi isə cənubu bildirir.

## SU İNAMI

Arxaik inamlar içərisində su ilə bağlı inamlar da mühüm yer tutmaqdadır. İslamdan öncə xalqımız suya tapınmış, ona kult kimi baxmışdır. Suyun müqəddəsliyi, onunla təmas qura bilmək inamı geniş yayılmışdır. Sudan dilək diləmə, pay alma ilə bağlı müxtəlif rəvayətlər mövcuddur. Nağıllarda suyun insanla danışması, suyun yatması, çərşənbə gecəsində xüsusi möcüzəyə malik olması və s. Azərbaycan türklərində su hörmət və ehtiram göstəricisidir. "Yol böyüyün, su kiçiyin" deməklə müəyyən yaş mərhələsində olanlar arasında etik davranış normaları aşılanır. Su xalqımızın adət-ənənələrində, mərasimlərində əhəmiyyətli yer tutur.

Su ilə bağlı inanclar sisteminə bu gün də Naxçıvan bölgəsində rast gəlmək mümkündür. "Kitabi-Dədə Qorqud" dastanında su ilə bağlı inancların daha arxaik formasına rast gəlirik. Qazan xan evinin yağmalandığını gördükdə gedərkən qabağına su çıxdı. Qazan aydır "su həqq didarını görmişdir. Bən bu suya xəbərləşim" dedi [Kitabi-Dədə Qorqud, 1988, s. 134]. Burda suyun insan övladına yol göstərdiyini, xəbər verdiyinin şahidi oluruq. Su inamından bəhs edərkən öncədən qeyd olunmalıdır ki, Naxçıvan bölgəsinin mineral bulaqlarla, isti su ilə zəngin olması belə sular və bulaqlarla bağlı müəyyən inamların formalaşmasına səbəb olmuşdur. Xalqın inamına görə, sular xəstəliklərdən qorunmaq, dərdləri sovuşdurmaq xüsusiyyətlərinə malikdir. Suyu canlı hesab edən xalq dərdini, yuxusunu ona danışır, su ilə təmasa girir, öz taleyini suda axtarır. Xalq arasında su təmizlik, paklıq rəmzi olsa da, müqəddəs yerlərdəki bulaqlara, sulara böyük inam vardır. Bütün ziyarətgahların suyu müqəddəs sayılır, "ocaq suyu" deyilir. Bu baxımdan Əshabi-Kəhf və onun ətrafındakı sular daha da müqəddəs sayılır. Əshabi-Kəhfdə "damcıxana" deyilən bir yer vardır ki, insanlar burada üstlərinə su damcısı düşsün deyə dəqiqələrlə gözləyirlər. Bu damcıların insanların üstlərinə düşməsi ilə niyyətlərinin həyata keçəcəyinə inanırdılar. Bu sadəcə bir su kultu, su inamı ilə bağlı idi. Axırçərşənbə mərasiminin sabahısı günü Naxçıvan bölgəsində "su üstə getmək" kimi adət vardır ki, bu da su kultu ilə bağlıdır [Qədirzadə, 2003, s. 260].

Heyvanlarla bağlı inamlar demək olar ki, qədim insanların arxaik təsəvvürlərində heyvanlara pərəstiş də müəyyən yer tuturdu. Arxeoloji abidələrdən tapılmış əşyalar üzərində günəşin kənarlarında quşlar, onların arasında üçbucaqlar (dağlar), maral və keçi, ilan təsvirlərinin verilməsi bunu bir daha təsdiq edir.

## ƏCDAD KULTU

Qədim dini təsəvvürlərdə əcdadlar kultu da mühüm yer tuturdu. Əcdadlara sitayiş müqəddəslərə sitayişə bənzərdir. Naxçıvanda aparılan arxeoloji qazıntılar zamanı tədqiq edilən qəbirlərdən

aşkar edilən maddi mədəniyyət nümunələrinin tədqiqi belə nəticəyə gəlməyə imkan verir ki, əcdadlar kultu Eneolit dövründə mövcud olmuşdur [Həsənov, 2018, s. 250-254]. Belə ki, yaşlıları evlərin içində dəfn edilməsi bir başa əcdad kultundan xəbər verir. Professor Vəli Baxşəliyev Kültəpə yaşayış evlərinin ortasında dəfn edilən qəbirləri məhz əcdadlar kultu ilə bağlamışdır [Baxşəliyev, 2004, s. 26]. Qəbilə rəhbərlərinin evin altında dəfn edilməsi, əcdadın ruhunun çağırılması, onların qəbirlərinə təmas edilməsi və s. vasitələrlə əlaqə qurulmasına çalışılmışdır. Əcdadlar kultuna inam daima olmuşdur. Bu kultun tarixi insanın mədəniyyət qurmağa başladığı zamanlardan bəri paralel olaraq inkişaf etmişdir. İstənilən xalqın inanclar sistemini araşdırılmasında əcdadlar kultunun tədqiqi vacib məsələlərdəndir. Naxçıvanda arxaik inamlar içərisində təbiət qüvvələrinə də inam mühüm yer tutmuşdur. Təbiət qüvvələrinə inam həmən-həmən bütün türk toplumlarında mövcuddur. Bu insanların təbiət qüvvələrinin qarşısında qaldığı acizliklə bağlıdır. Deməli, əski təsəvvürlərin formalaşması insan və təbiətin vəhdəti, təbiət hadisələrinin insanın təsəvvüründə qavranılması və mifoloji məzmun verilməsi ilə də bağlı olmuşdur. Səma cisimlərinə də inam bölgədə geniş şəkildə yayın olmuşdur. İnsanlar Günəşi, Ayı, ulduzları müqəddəs bilmiş, onları and yerlərinə çevirmişdilər. “Günəş haqqı”, “Ay haqqı”, deyərək and içmişlər. Bölgədə toplanmış etnoqrafik materiallara görə “Ay tutulması” zamanı müəyyən rituallar həyata keçirilirdi. Belə ki, dəmiri-dəmirə döyür, havaya güllə atardılar. İnanırdılar ki, bundan sonra bəd qüvvələr Ayı buraxacaqlar.

## NƏTİCƏ

Etnoqrafik müşahidələr göstərir ki, xalqımız animizmin qalıqları olan qədim dini ayinlərə və arxaik inamlara bu gün də əməl edirlər. Bu arxaik inamlar etnosun etnik kimliyini təsdiq edən amillərdəndir. İslamaqədərki inamlar sistemində insanlar təbiət qüvvələrinə, müəyyən əşyalara: ağaca, daşa, suya kult kimi baxmışlar.

## ƏDƏBİYYAT

*Azərbaycan etnoqrafiyası* (3-cü cild). (2007). Şərq-Qərb.

Baxşəliyev, V. (2004). *Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti (e. ə. VI-I minilliklərə aid arxeoloji abidələr əsasında)*. Elm.

*Bilqamıs dastanı*. (1985). Gənclik.

Həsənov, S. (2019). Naxçıvanda söyüdlə dəfnetmə adəti. *NDU-nun Elmi Əsərləri. İçtimai elmlər seriyası,* 2 (99), 54-57.

Həsənov, S. (2018). Əcdadlar kultu: Tözlər və daşbabalar. *Naxçıvan Universiteti, Elmi əsərlər,* 1, 251-258.

*Kitabi-Dədə Qorqud dastanı*. (1988). Yazıçı.

Qədirzadə, H.Q. (2003). *Ailə və məişətlə bağlı adətlər, inamlar, etnogenetik əlaqələr*. Elm.

Qədirzadə, T. (2006). *İslamaqədərki adətlər, inamlar və mərasimlər (Naxçıvan materialları əsasında)*. Nurlan.

Seyidov, A. (2003). *Naxçıvan VII-II minillikdə*. Elm.

*(Tarix elmləri doktoru Şirin Bünyadova tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 14.01.2026**
**Son variant 10.02.2026**